# ASTARA: ÖTƏN İLİN NƏTİCƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR





Astara Rayon İcra Hakimiyyəti başçısı yanında şuranın 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncağı keçirilmişdir. Rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, icra aparatının işçiləri, ərazi inzibati dairəsi üzrə nümayəndələr, bələdiyyə sədrləri, qeyri-hökumət təşkilatlarının və ictimaiyyətin nümayəndələri yığıncaqda iştirak edirdilər.

Tədbir iştirakçıları əvvəl xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzi meydanında ucaldılmış əzəmətli abidəsini ziyarət etmiş, abidənin önünə gül dəstələri düzmüşlər.

Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev iclası giriş sözü ilə açaraq, rayonun ərazi inzibati dairəsi üzrə nümayəndəliklərində, idarə, müəssisə və təşkilatlarda ötən ilin yekunları ilə bağlı hesabat yığıncaqlarının keçirildiyini, "Respublika" qəzetində rayonun 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş səhifənin, "Astara" qəzetinin xüsusi buraxılışının çap olunduğunu diqqətə çatdırmış və yığıncağın işinə uğurlar arzulamışdır.

Ötən il Astara rayonunda da yüksək nailiyyətlər əldə olunmuş, əlamətdar hadisələrlə yadda qalmışdır.

Bunu iqtisadi sahədə qazanılmış nəticələr də sübut edir. Yerli gəlirlər 5 milyon 594 min manat əvəzinə 6 milyon 356 min manat, yaxud 111,6 faiz icra olunmuşdur. Yerli xərclər isə 20 milyon 145 min manat əvəzinə 19 milyon 404 min manat icra edilmişdir. Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzi büdcədən 14 milyon 420 min manat dotasiya alınmışdır.

Rayonda ümumi məhsul buraxılışının həcmi 160,3 milyon manata çatmışdır. Bunun 7,4 faizi sənaye, 42,5 faizi kənd təsərrüfatı, 1,8 faizi nəqliyyat, 24,6 faizi ticarət və pullu xidmətlər, 23,2 faizi tikinti və 0,5 faizi isə rabitənin payına düşür. Orta hesabla bir nəfərə düşən ümumi məhsul buraxılışının həcmi 1553 manat olmuşdur.

Keçən il tikinti işlərinin aparılması üçün bütün maliyyə mənbələrindən əsas kapitala 39,1 milyon manat məbləğində vəsait yönəldilmişdir. İnvestisiyanın 1,2 milyon manatı istehsal təyinatlı obyektlərin, 37,9 milyon manatı isə xidmət sahələri üzrə obyektlərin inşasında istifadə edilmişdir. Əsas kapitala yönəldilmiş investisiyaları bütünlüklə daxili investisiyalar təşkil edir.

Şəhərin Səməd Vurğun və Əhəd Muxtar küçələrində tikinti-abadlıq işləri aparılmış, yeni işıqlandırma sistemi quraşdırılmışdır. Şəhərin prospekt və küçələrində küveytlər məişət tullantılarından təmizlənmiş, 6 ictimai yaşayış binasının fasad hissəsi əsaslı təmir olunmuşdur.

Heydər Əliyev prospektindən "Relaks" istirahət mərkəzinə su xətti çəkilmiş, "N" saylı hərbi hissədə dördmərtəbəli yaşayış binasının zirzəmisində su xətləri yenidən qurulmuşdur.

Xəzər dənizinin sahili boyunca 8 hektar sahədə park-bulvar tikilir. Bulvarın inşası üçün 300 min kubmetr torpaq daşınmış, 650 metr məsafədə mühafizə bəndi, gəzinti yerləri, istirahət meydanı inşa edilmişdir. Bulvarın 14 min kvadratmetrlik ərazisinə travertin düzülmüş, işıqlandırılma sistemi quraşdırılmışdır. Ərazidə iki fəvvarə, yaxınlıqda yaşayış kompleksi tikilir. Burada əyləncə mərkəzinin, çay evi və kafenin inşası, uşaqların əylənməsi üçün attraksionların quraşdırılması, mini futbol və voleybol meydançalarının tikintisi nəzərdə tutulmuşdur.

Astara şəhərində maliyyə idarəsi üçün ikimərtəbəli inzibati bina tikilib istifadəyə verilmişdir. Telman kəndində çay emalı fabrikinin, Züngüləş kəndi ərazisində 0,3 meqavat gücündə "Astara-1" su elektrik stansiyasının tikintisi davam etdirilir.

Dövlət Proqramının uğurla icrası nəticəsində rayonda 6498 iş yeri açılmışdır. Bunun 6082-si daimi iş yerləridir. Ötən il rayonda 625 yeni iş yeri açılmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 12 sentyabr 2013-cü il tarixli Sərəncamı ilə 12 min nəfər əhalinin yaşadığı 21 yaşayış məntəqəsini birləşdirən Deqədi-Pəlikəş avtomobil yolu keyfiyyətlə tikilmiş, 2 yeni körpü qoyulmuş, yola asfalt döşənmişdir.

Təzə yol dağ kəndlərinin sakinlərinə rahatlıq, xoş güzəran gətirməklə yanaşı, turizmin inkişafı üçün də geniş imkanlar açmışdır. Sakinlər və rayon ictimaiyyəti bu möhtəşəm layihənin həyata keçirilməsinə görə möhtərəm Prezidentimiz İlham Əliyevə hədsiz minnətdarlıqlarını bildirirlər.

Rayonun təbii qaz təchizatının yaxşılaşdırılması məqsədilə ötən il xeyli iş görülmüşdür. Züngüləş kəndinə qaz xətti çəkilmiş, 124 abonentə təbii qaz verilmişdir. Əhali sektoru üzrə 514 ədəd qaz sayğacı quraşdırılmış, abonentlərin sayı 14616-ya çatdırılmışdır. Rayona il ərzində 26 milyon 332,4 min kubmetr həcmində təbii qaz verilmiş, onun dəyərinin 97 faizi ödənilmişdir.

Rayonda aqrar sahənin inkişafına xüsusi diqqət yetirilir. Keçən il fermer təsərrüfatlarına və fiziki şəxslərə güzəştli qiymətlərlə 128 ton mineral gübrə satılmış, 836 nəfər məhsul istehsalçısına 94492 manat dəyərində subsidiya verilmişdir.

Keçən il çay plantasiyalarından 307,6 ton yaşıl çay yarpağı yığılıb emal müəssisələrinə təhvil verilmişdir. Şüvi və Ojakəran kəndlərində yeni çayçılıq təsərrüfatları yaradılmışdır. Həmin təsərrüfatlarda 1 milyondan çox dibçəkdə çay şitilləri yetişdirilmişdir. Şitillər 30 hektar yeni çay plantasiyasının salınmasına və yanmış kolların bərpasına sərf olunacaqdır.

Sitrus və subtropik meyvə bağlarında bol məhsul yetişdirilmişdir. İl ərzində bağlardan 32 min tondan çox məhsul yığılmışdır.

Keçən il fermer və şəxsi təsərrüfatlarda 327 ton buğda, 619 ton çəltik, 3076 ton dənli-paxlalı bitki məhsulları, 11582 ton kartof, 44877 ton tərəvəz, 8108 ton bostan məhsulları istehsal olunmuşdur. Çəltikçiliklə məşğul olanlar üçün Türkiyədən yeni texnika və avadanlıqlar gətirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci ili "Kənd təsərrüfatı ili" elan etməsi kənd təsərrüfatının inkişafına göstərilən dövlət qayğısının parlaq nümunəsidir. Rayonda müasir aqroparkın və yeni fermer təsərrüfatlarının yaradılması, məhsul bolluğunun, ərzaq təhlükəsizliyinin təmin edilməsi ən ümdə vəzifələrdəndir. Əkinə yararlı torpaqların əkilib-becərilməsini təmin etmək məqsədilə bütün imkanlardan istifadə edilməlidir.

Şura iclasında təhsil şöbəsinin müdiri Qızbəs Məmmədova, rayon mərkəzi xəstəxanasının baş həkimi Əlövsət Əliyev, rayon polis şöbəsinin rəisi Adil Həsənov, suvarma sistemləri idarəsinin rəisi Habil Manafov, Astara bələdiyyəsinin sədri Aygül Məmmədova, fermer təsərrüfatının rəhbəri Samir Mayılov, rayon ağsaqqallar şurasının sədri Hamlet Əliyev, həkim Aytən Şiriyeva, Sım kənd tam orta məktəbinin müəllimi Nəbi Xalıqov görülmüş işlərdən danışmış, doğma Astaranın inkişafına, çiçəklənməsinə göstərdiyi yüksək qayğıya görə dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildirmişlər.

Milli Məclisin deputatı Aslan Cəfərov çıxışında 2014-cü ilin ölkəmiz üçün çox uğurlu olduğunu, aparılan islahatların daha da dərinləşdiyini, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artdığını, Azərbaycanın cənub qapısı sayılan Astaranın mühüm nailiyyətlərə imza atdığını qeyd etmişdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Vəfadar Bağırov şura iclasında çıxış edərək Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyilə bütün sahələrdə sürətli inkişafın təmin edldiyini, Astara rayonunda görülmüş işlərin təqdirəlayiq olduğunu diqqətə çatdırmış və rayonun icra orqanları qarşısında duran vəzifələrdən danışmışdır.

Yığıncaqda Azərbaycan Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olunmuşdur.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**